HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

15 dekabr 2015-ci il

№0013 (13)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “იენი იოლი” საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci ildən nəşr olunur

## TƏBİİ FƏLAKƏT XƏZƏRDƏ XALQIMIZI AĞIR SINAĞA ÇƏKDİ



Dekabrın 4-də "Günəşli" yatağının 10-cu dərin dəniz özülündə baş verən yanğın bu gün də davam etməkdədir.

Yataqdakı quyulardan birində yanğın artıq söndürülüb, digər quyularda yanğının söndürülməsi üçün tədbirlər davam etdirilir. Yanğının söndürülməsinə Azərbaycan Respublikasının FHN-in gəmiləri cəlb olunub.

Dekabrın 4-də baş verən qəza nəticəsində burada çalışan 63 nəfərdən 7 nəfəri həlak olub, 23 nəfəri isə itkin düşüb. İtkin düşənlərin axtarışları bu gün də davam etdirilir. Təbii fəlakətdən zərər çəkmiş 33 nəfəri isə xilas etmək mümkün olub.

Baş vermiş faciə ilə əlaqədar dekabrın 6-da Azərbaycanda matəm elan olunub.

“Yeni yol” olaraq biz də faciə qurbanlarının ailələrinə, yaxınlarına, bütövlükdə xalqımıza başsağlığı veririk, həlak olanlara Allahdan rəhmət diləyirik. Faciədə xəsarət alanlara tezliklə sağlamlıqlarına qovuşmaq diləklərimizi çatdırırıq.

## ÇİNDƏN ÇIXAN İLK QATAR TİBİLİSİYƏ ÇATIB

Dekabrın 13-də yeni “İpək yolu” marşrutu ilə Çindən gələn tranzit qatar Tbilisiyə çatıb. Tbilisiyə gəlincəyə qədər qatar Çin, Qazaxıstan və Azərbaycan ərazisindən keçib. Qatar Gürcüstandan Türkiyəyə hərəkət edəcək.

Gürcüstan paytaxtına gələn qatar mərkəzi dəmiryol vağzalında təntənəli şəkildə qarşılanmış, burada bu münasibətlə təntənəli mərasim keçirilmişdir. Mərasimdə ölkə rəhbərliyinin nümayəndələri iştirak etmişlər. Mərasimdə Gürcüstanın baş naziri İrakli Qaribaşvili çıxış edərək, bu hadisəni “tarixi gün” adlandırmışdır.

Onun sözlərinə görə, “İpək yolu” layihəsi vasitəsi ilə Gürcüstan multiregional mərkəzə çevriləcək. O, qeyd etmişdir ki, layihə çərçivəsində yüklər Çinin ucqar şərqindən Qazaxıstan, Azərbaycan və Gürcüstan vasitəsilə Qərbi Avropaya çatdırılacaq. “Şadam ki, bu qatarı rəmzi olaraq Gürcüstan, Azərbaycan, Türkiyə, Qazaxıstan və Avropa İttifaqı bayraqları bəzəyir. Biz qısa müddətdə (8-10 gün) yükləri Gürcüstanda qəbul edirik, onun Avropanın digər ölkələrinə göndərilməsi üçün 3-5 gün vaxt lazımdır”, – baş nazir əlavə edib.



AĞ GÜN DALINCA GEDƏN QARAGÜNLÜLƏR — 2

ZƏNGİN SÜFRƏLƏRİNİ BƏZƏYƏN BƏZİ TƏAMLAR BARƏDƏ — 3

MÜSƏLMANDAN QEYRİSİNİ DOST TUTAN MÜSƏLMANLAR — 4

MEDALIN O BİRİ ÜZÜ — 5

DÜNYA İQTİSADİ BÖHRANININ GÜRCÜSTANA TƏSİRİ — 6

TEATRLARIN İCARƏ QİYMƏTLƏRİ DODAQ UÇUQLADIR — 7

SƏNƏT – GÜNƏŞƏ İŞIQ VERƏ BİLƏN GÜC — 8

## GÜRCÜSTAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİ ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİNİ MÜZAKİRƏ EDİBLƏR



Tükmənistana səfəri çərçivəsində Gürcüstan prezidenti Georgi Marqvelaşvili türk həmkarı Rəcəb Tayyib Ərdoğanla görüş keçirib.

Görüşdə prezidentlər ikitərəfli və çoxtərəfli əməkdaşlığın aktual məsələlərini, o cümlədən də Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin sürətləndirilməsi, Şərq-Qərb nəqliyyat dəhlizinin buraxıcılıq qabiliyyətinin artırılması, Xəzərin enerji ehtiyatlarının nəql olunmasının yeni imkanları ilə bağlı məsələləri müzakirə ediblər.

Gürcüstan prezidenti həmkarı ilə Türkmənistan, Azərbaycan, Gürcüstan və Türkiyə arasında əməkdaşlığın genişləndirilməsinə dair öz fikirlərini bölüşüb.Tərəflər regional təhlükəsizlik məsələlərinə də diqqət yetiriblər.

Türkiyə prezidenti bir daha Gürcüstanın ərazi bütövlüyünü dəstəklədiyini vurğulayaraq, Rusiyanın qondarma Abxaziya və Cənubi Osetiya rejimləri ilə müqavilə bağlamasını qınayıb.

Gürcüstan bir daha həm Gürcüstanın tərəfdaşı, həm də NATO-nun üzvü kimi Türkiyənin dəstəyini qazanıb. Belə ki, Türkiyə alyansa daxil olmaqda Gürcüstanı dəstəkləyəcəyini bəyan edib.

## GÜRCÜSTAN PREZİDENTİ İKİNCİ İLYA İLƏ GÖRÜŞ KEÇİRİB



Gürcüstan prezidenti Georgi Marqvelaşvili hesab edir ki, Bütün Gürcüstanın Katolikos-Patriarxı cəmiyyətin intellektual, əxlaqi və mənəvi həyatında mühüm rol oynayır. Bu barədə ölkə prezidenti İkinci İlya ilə dekabrın 7-də olan görüşün başa çatması zamanı bəyan edib.

“İmkanım oldu ki, Patriarxımıza öz hörmət və sevgimi bir daha ifadə edim. Bizim hər birimiz, xüsusilə də siyasətçilər Gürcüstan üçün mühüm rol oynayan şəxsi qorumağa borcluyuq”, – prezident qeyd edib.

O, həmçinin qeyd edib ki, görüşdə patriarxın məhkumların əfv olunma hüququnun onun öhdəsinə verilməsi barədə söhbət getməyib.

Patriarxlıq bundan əvvəl artıq bəyanat yaymışdı ki, Patriarx məhkum qadınların təsirli tamaşasından sonra, bunu həyacanlı şəkildə deyib, o, məhkumların əvf olunması hüququnun qanuni şəkildə onun ixtiyarına verilməsini tələb etmək fikrində olmayıb.

## GÜRCÜSTAN PREZİDENTİ İNSAN HÜQUQLARINI QORUMAĞA ÇAĞIRDI

Beynəlxalq ictimaiyyət dekabrın 10-da insan hüquqları gününü qeyd edib. Həmin gün 1948-ci ildə BMT-nin Baş Assambleyası Ümumi insan hüquqları bəyannaməsini qəbul etmişdir.

İnsan hüquqlarının müdafiəsi günü münasibətilə Gürcüstan prezidenti Georgi Marqvelaşvilinin müraciəti yayılmışdır.

“Gürcüstan konstitusiyası hüquq və azadlıqları ali və dönməz dəyərlər kimi müəyyənləşdirərək, müdafiə edir. Lakin, biz müxtəlif səpkili insan hüquqlarının pozulması faktlarından hələ azad deyilik. Belə hallardan yayınmaq üçün hələ çox iş görmək lazımdır”, – prezident müraciətində vurğulamışdır.

Gürcüstan prezidenti insan hüquqlarının müdafiəsini yaxşılaşdırmaq üçün ədliyyə sisteminin təkmilləşdirilməsinə başlamağı təklif etmişdir.

“İnsan hüquqlarının müdafiəsinin gücləndirilməsini mən öz fəaliyyətimin əsas vəzifəsi hesab edirəm. Həmvətənlərimə söz verirəm ki, hər zaman onların hər birinin azadlıqlarının keşiyində duracam”, – Georgi Marqvelaşvili müraciətində bildirmişdir.



Afiq MUXTAROĞLU
amuxtaroglu@mail.ru

## *AĞ GÜN DALINCA GEDƏN QARAGÜNLÜLƏR*

**Gedənlər ağ günündən qaçanlar deyil, əksinə ağgün axtarşına çıxanlardır. "Tarixi-Nadiri" yarıyacan oxumuşlardan biri kimi diqqətinizə ərz edim ki, dilimizdəki getmək məsdəri çoxmənalılıqda rekord vurmağa layiq bir zaddır. Nədən ki, bu getmək məsdərindən hər gün istifadə etməyən bir zat belə tapmaq mümkünsüzdür. Ola bilər ki, adamın biri dünənki kef məclisindən sonra məsti-xumar olub yerindən qalxa bilməsin və bu sözün heç bir zamanından da istifadə etməsin. Amma mən buna da heç cür inanmıram. O üzdən ki, bu zalım heç olmasa su içməyəmi, nə bilim başqa bir zadamı mütləq gözünü açmalı olacaq, azından harasa getmək istəyəcək. Bunun yüzdə yüz belə olmasını siz də fəhm edə bilərsiniz. Bir də Iraq üzünüzdən, İraq qulağınızdan huşunu-başını itirənlər bu sözdən istifadə etməyi müvəqqəti də olsa unudurlar. Mən öz adımdan deyim ki, heç buna da inanmıram. Mənim bildiklərimə görə ölümlə əlbəyaxa olanların çoxu, kliniki ölüm keçirdikdən sonra, oyanınca əvvəl görmədikləri başqa bir dünyaya getdiklərini söyləyirlər. Yəqin siz də ucundan-qulağından bu barədə eşitmiş olarsınız. Elə bu səbəbdən də mən çox xırdalığına varmadan bununla kifayətlənməli oluram. O üzdən ki, sizə güvənirəm.**

Axı mən heç bunları söyləməli deyildim. Mən başqa bir məsələni, hamımızın ağrılı yerimiz olan bir məsələni qabartmaq istəyirdim. Məqsədim evini-eşiyini, doğma yurd-yuvasını, bəzən də qoca, əldən-ayaqdan düşmüş ata-anasını, bir zənbil körpəsini damın altında, dörd divar arasında Allah ümidinə qoyub gedənlərdən danışmaq idi. Qüsura baxmayın, əsas mövzuya girişənə qədər xəyalım bir xeyli orada, burada gəzişməli oldu. Heç bilmirəm bu gün mənə nə olub. Gözümə cin-şeytan da görünməyib ki, deyəm əndərabadi bir duruma düşmüşəm. Baxırsınızmı yenə də başqa zadlardan nəsə hətərən-pətərən danışıram. Dübarə günahımdan keçmənizi rica edəcəm. Sizin də nə vaxtsa belə bir duruma düşdüyünüz olub yəqin?

Hə, onu deyirdim ki, bu adamlara – qohumlarımıza, qonşularımıza, dostlarımıza nə olub, nədən ev-eşiklərindən didərgin düşüblər? Rus çarının, sovet "troyka"sının gedər-gəlməzə – Sibirə zorən sürgün etdikləri adamların törəmələri nədən bu sürgün yerlərini könüllü seçib, öz ayaqları ilə bu yerlərə gedib çıxırlar? Qara günün qaragünlü adamı çöllərə saldığını kim bilmir ki? Heç siz bankların qarşısında ümidsiz adamları görməmisinizmi? Pul dərdindən ağrılarını içərisində gəzdirib, həkimə, müalicəyə gedə bilməyənlərə də rast gəlmisiniz yəqin? Ümidsizliyin, çarəsizliyin nə olduğunu, necə bir zad olduğunu bilməyənlərə bu adamlardan birini göstərməmiz kifayət edər ki, məsələnin nə yerdə olduğunu anlasın. Indi bir özünüz deyin, bu qaragünlülər başlarını götürüb getməlidirlər, yoxsa elə evdə oturub çərləməlidirlər? Yəni onların qarşısında iki yol var və onlar bu iki yoldan birini seçməlidirlər. Yolun ikisində də könülaçan bir zad olmasına mən inanmıram, sizin yerinizə isə heç nə deyə bilmərəm.

İndi gəlin sizli-bizli bu adamlarımızı getdikləri yoldan çəkindirək, ətəklərindən yapışıb amandı-hoydu getməyin deyək. Və ya gedib məkana çıxmışlarımıza qayıdın deyək, doğma yurd sizi gözləyir deyək, bunlardan onlara bir faydamız toxunacaqmı? Mən inanmıram, sizin də inanmadığınızı ovcumun içi kimi bilirəm. Şəxsiyyətinə böyük hörmət bəslədiyim Gürcüstan pravoslav kilsəsinin başçısı İkinci İlyanın bazar günü moizələrindən birində gedənləri doğma Gürcüstana səsləməsi də məsələnin nə qədər ağrılı olduğunu, ağrılı olduğu qədər də düşündürücü olduğunu yadımıza salır. Cənab Patriarxın bu müraciətini oxuyub kövrəldiyimi də söyləmədən keçə bilmirəm. Nədən ki, atasının, bəzən də valideynlərinin hər ikisinin yolunu gözləyən neçə ümidsiz körpə gözü canlanaraq canıma od salır, onların əzizlərinin getməsində sanki mən suçlu-günahkarammış kimi bir hiss də yaşamalı oluram.

**Gedənləri heç bilmirəm nə üzlə geri qaytaraq və ya nə vəd edək ki, gedənlər qayıtsın. Məsələnin ən qəliz tərəfi də məhz bu deyilmi? Adamları quru vədlə, yalançı mentalitet yalanları ilə aldatmağın, onların sızlayan ağrılarını ovutmağın mümkün olmadığını hamı da bilir. Gedənlər də, yurdda qalanlar da gerçəkliklərin tərs üzünü görənlərdir, acılardan dərs alanlardır.**

## ÖLKƏMİZDƏ GÜNƏŞLİ YATAĞINDA HƏLAK OLAN NEFTÇİLƏRİN XATİRƏSİ YAD EDİLDİ

Gürcüstan vətəndaşı olan, eləcə də burada təhsil alan azərbaycanlılar "Günəşli" neft yatağının 10-cu platformasında faciəli şəkildə həlak olan neftçilərin xatirəsini yad ediblər.

Diasporla iş üzrə dövlət komitəsinin mətbuat xidmətində belə məlumat veriblər ki, gənclərin nümayəndələri SOCAR-ın Gürcüstan nümayəndəliyinin ofisi qarşısında həlak olmuş neftçilərin xatirəsini bir dəqiqəlik sükutla yad etmişlər. Gürcüstandakı Azərbaycan mədəniyyət mərkəzinin gənclərlə iş şöbəsinin rəhbəri Nərgiz Əliyeva bu ölkədə yaşayan azərbaycanlılar adından həlak olanların doğmalarına və yaxınlarına başsağlığı vermiş, yaralılara tez şəfa tapmalarını diləmişdir.




Qeyd etmək lazımdır ki, faciə ilə əlaqədar SOCAR-ın Gürcüstandakı bütün yanacaq doldurma məntəqələrində Azərbaycan bayrağı yarıyadək endirilmişdir.

## DİNDARLARIN DİNİ HİSSLƏRİNİN TƏHQİR OLUNMASINA GÖRƏ CƏRİMƏ MÜƏYYƏNLƏŞDİRİLƏ BİLƏR

Dini müqəddəslərin və din xadimlərinin təhqir olunmasına görə cərimə müəyyənləşdirilməsi mümkündür. Müvafiq layihə artıq Gürcüstan parlamentinə təqdim olunub.

Söhbət İnzibati xətalar məcəlləsinə dəyişikliklər edilməsindən gedir ki, bu, deputat Soso Caçvalianinin təşəbbüsüdür. Layihənin müəllifi "Demoqrafiyanın inkişafı fondu"nun direktoru Zviad Tomaradzedir. Qanunvericilik təşəbbüsü parlament bürosunun iclasında qeydiyyatdan keçib.

Təklif olunan dəyişikliklərə əsasən inzibati xətalar məcəlləsinə yeni maddə əlavə ediləcək. Yeni maddə dini yerlərə, təşkilatlara, din xadimlərinə və dindarlara qarşı açıq nifrətin ifadə olunmasına və ya məqsədi dindarların hisslərini təhqir etmək olan materialların nəşr və nümayiş etdirilməsinə görə 300 lari həcmində cərimə nəzərdə tutur. Hərəkət ikinci dəfə təkrarlandıqda cərimənin həcmi 600 lariyə yüksəlir.

Layihəyə görə, dini binaların və digər müqəddəs yerlərin, xüsusilə onların üzərində yazı yazılması və ya onlara zərər vurulmasına görə 500 lari həcmində cərimə nəzərdə tutulur. Bu cür hərəkət təkrar olunduqda cərimənin həcmi 1000 lariyə yüksəlir.

Qeyd edilib ki, bu qanun layihəsinin qəbul olunmasına son vaxtlar vətəndaşların din hisslərinin, mövcud dinlərin və ruhani şəxslərin təhqir olunmasının artması səbəb olmuşdur.

## QARDABANİDƏ YERLİ İDARƏETMƏ BAŞÇISININ NÖVBƏDƏNKƏNAR SEÇKİLƏRİ KEÇİRİLƏCƏK

Gürcüstan prezidenti Georgi Marqvelaşvilinin dekabrın 9-da verdiyi fərmana əsasən 2016-cı ilin 28 yanvarında Qardabanidə növbədənkənar qamqebeli (yerli idarəetmə başçısı) seçkiləri keçiriləcək.

Növbədənkənar seçkilərin təyin edilməsini müstəqim seçkilər yolu ilə seçilmiş Qardabani rayon qamqabelisinin vəfatı şərtləndirmişdir.

Qanuna əsasən növbədənkənar qamqebeli seçkilərində qalan müddət üçün müvafiq bələdiyyənin fəaliyyətdə olan səlahiyyətli sakrebulosu seçilir.

## MARNEULİDƏ ERKƏN NİKAH MÖVZUSUNDA VƏTƏNDAŞ DİNLƏMƏLƏRİ KEÇİRİLİB

Dekabrın 12-də Marneuli şəhərində "Erkən nikahlar və qanunvericilik təşəbbüsü" mövzusuna dair vətəndaş dinləmələri baş tutub.

Xəbər verilir ki, məruzələri gender problemi məsələləri üzrə ekspert Nona Samxaradze və barışıq və vətəndaş bərabərliyi məsələləri üzrə nazirin Kvemo Kartli regionunda nümayəndəsi Zaur Dərğalı təqdim ediblər. Tədbirin aparıcısı Marneuli bələdiyyəsinin qadınlar şöbəsinin baş mütəxəssisi Rima Otaraşvili olub.

Tədbir "İnsan hüquqları üzrə rəmzi Qafqaz məhkəməsi və Vətəndaş dinləmələri Qafqaz ölkələrində demokratiyanın xidmətində" proqramı çərçivəsində Demokratiyaya Yardım Milli Fondunun (National Endowment for Democracy – NED) dəstəyilə keçirilib.

Xatırladaq ki, tədbiri Vətəndaş dinləmələrinin Qafqaz Mərkəzi təşkil edib.

## 150 VETERAN YÜKSƏK KEYFİYYƏTLİ PROTEZ ALACAQ

Veteranların işi üzrə xidmətin direktoru İrakli Şixiaşvili Berlində Otto Bock şirkətinin nümayəndələri ilə görüş keçirmişdir.

Görüş Otto Bock HealthCare GmbH şirkətilə bağlanmış memorandum çərçivəsində baş tutmuşdur. Gələcək üçün layihələr nəzərdən keçirilmiş, 2016-cı ilin plan-qrafiki tərtib olunmuşdur. Veteranlar xidməti və Otto Bock arasında əməkdaşlıq 2015-ci ildə başlamış, bu əməkdaşlıq nəticəsində Otto Bock şirkəti 34 nəfər əlil veterana protezlər hazırlayacaq.

Berlindəki görüşdə 2016-cı ildə 150 əlilin yüksək texnologiyalı protezlərlə təmin olunması planlaşdırılıb.

## YANVARIN 1-DƏN UNUN ÜZƏRİNDƏ KEYFİYYƏT ETİKETİ OLACAQ

Yanvarın 1-dən Gürcüstanda respublika hökumətinin qərarına uyğun olaraq, qabının üzərində məhsulun keyfiyyəti haqqında etiket yerləşdirilmiş unu satmaq mümkün olacaq.

"Yeni aqrar Gürcüstan" jurnalının baş redaktoru Şota Maçaraşvilinin sözlərinə görə, tətbiq edilən yenilik ölkə əhalisi üçün faydalıdır.

Yeni tətbiq olunan qaydanın məqsədlərindən biri Gürcüstan əhalisini keyfiyyətli məhsulla təmin etməkdir, lakin bu, Avropa Birliyi ilə



bağlanmış assosiasiya haqqında müqavilədə də nəzərdə tutulub.

# ZƏNGİN SÜFRƏLƏRİNİ BƏZƏYƏN BƏZİ TƏAMLAR BARƏDƏ

*Bu yaxınların söhbətidir, ortalıq yolunda dörd-beş dostumuz baş-başa verib olandan-qalandan, ordan-burdan söhbət açıb, dərdləşirdik. Dostlarımızdan birinin "Tiflisdə bir mağaza gördüm, adi bir gödəkçəni 5000 avroya satırlar" deməsilə aranın qarışıb, məzhəbin itməsi bir oldu. Birimiz "O nə gödəkçəsidir elə ki, bu qiymətə satırlar", digərimiz "Ə, kimdir alan elə şeyləri" kimi şərh verdik. Və dostlarımızdan biri "onu alıb geyinən varmı" sualını verməsi hamımızın susmamıza, düşüncələrə dalmamıza səbəb oldu. Nədən ki, biz uşaq deyilik, nəbalıq deyilik ki, anlamayaq. Hamımız çox gözəl anlayırdıq ki, əgər o gödəkçəni İtaliyadan Tiflisə gətiriblərsə, deməli, onu alan da var, alıb geyinən də, hələ üstəlik geyinib qonşusunu çatlatmaq istəyən də. Bu söhbətimizdən sonra zənginlərin nəyi geyindikləri, nəyi əyinlərinə yaxın buraxmadıqları məsələsini əl altından bir araşdırmaq keçdi fikrimdən. Demirlərmi kasıbın işi-gücü varlının varını-dövlətini saymaqla keçir. Boyunuma alım ki, bu durumda mənim vəziyyətim məşhur məsəlin zənginin sərvətini hesablayan kasıb qəhramanının durumu ilə eyniləşir. Nə isə, olan olub, dilimizdən çıxıb, gərək vəd etdiyim yazını yazam. Amma iş elə gətirdi ki, mən geyim məsələsi barədə yox, onların yeyimləri barədə yazmalı oldum.*

Yaponların becərdikləri kral yemişi 12 000 dollara satılır. Kral yemişi, yəni yubari iki növ yemişin hibrididir və nəyə görə kral yemişi adlandırıldığını mən də bilmirəm. Bir səbəbi olmamış deyil. Yemişin qiyməti 24 min dollara kimi qalxa bilir. Bay, tifağın dağılsın yemiş yetişdirən. Balam, belə də yemiş qiymətimi olar? Yemiş olar bir lari, iki lari, ötəndə də üç lari. Beş-on il qabaq Kürdəmirdə, yalan olmasın, 100-dən çox yemişi az qala bir lariyə satan qocanı tez-tez xatırlayıram. Hələ bu harasıdır, yaponların qara qarpızı var kilosu, bəlkə də bir ədədi 6000 dollara satılıb. Yaxşı yemişi qandıq, bu qarpız nəmənə şeydir, nə matah bir zaddır ki, qiyməti kəlləçarxa vurub. Guya bu qarpızı yeyənin buynuzu qoşamı çıxacaq, ya bu qarpızdan bir dilim yeyən canamı gələcək? Qarpızdı də, at deyil, dəvə deyil ki, belə axmaq qiymət qoyasan. Uzaqbaşı yarıdan çoxu sudur. Bir də ki, vay o gündən bu qarpızı alasan, içi də düşmüş ola və ya kal çıxa. Nə bilmək olar, kəsilməmiş qarpızdır, içindən nə çıxacağı bəlli olmaz.

Yaqut üzüm də Yaponiyanın məhsuludur. Üzüm hərracda 5400 dollara satılıb. Adam az qalır bu üzümü təcrübə edib ortaya çıxaranın yeddi arxadan dönənini topa-tüfəngə tutub deyə ki, zalım oğlu, başına işmi qəhətdir, bu nədir yetişdirib xalqı salıbsan azara. Bir də adam çəkinir ki, iddialı bir xanım eşidə və ərinin yaxasından yapışa ki, mən yaqut üzümü istəyirəm, biçarə kişi də papaq qoltuğunda əvvəlcə bir salxım üzümün – bəli, məhz bir salxım yaqut üzümü 5400 dollardır, birdən elə başa düşərsiniz ki, bu zəhrimarın kilosu, ya tonu 5400 dollardır, aldanarsınız – pulunu axtarmağa düşə, sonra da gedib Yaponiyadan tapıb gətirə. Allah, daşını yağdır. Elə bilirsiniz yağdırmayacaq, yağdıracaq, belə getsə daş nədir, lap od yağdıracaq.

Eh, hələ bunlar nədir ki, sənə albinos ağ balığın 10 min avroya satılan almaz kürüsündən deyim. "Qırmızı kitab"a düşmüş ağ balığı yarandığına peşiman edib, onu məhz bir kiloqramı 10 min avroya satılan kürüsünə görə ovlayırlar. Bu yerdə adamın fikrində cin-şeytan oynayır və düşünürsən ki, bu kürüdən bir-iki kilo olsaydı kasıbçılığın daşını atmaq olardı, beş-on kilosu ilə də beş kişidən biri.

İndi sizə hardan deyim, hardan xəbər verim yaponların vaqyu cinsindən olan mallardan aldıqları mərmər ətdən. Bu ətin qiyməti yapon bazarında 250-400 dollar arasında dəyişir, xarici ölkələrdə isə 800 dollara satıldığı vaxtlar



olur. Düzü mən bu ətin sorağını Moskvada yaşayan bir eloğlumuzdan illər öncə almışdım. Nəmənə bir zad olduğunu az-çox bilirdim. İndi baxın görün mərmər əti verən inəklər hansı şəraitdə bəslənir. Diqqət yetirin: "Bu inəklər seçilmiş otlar və buğda ilə qidalanır, premyum sinfinə məxsus pivə içir, stressə qarşı massaj edilirlər. Bu həm də yağın onların bədənində bərabər paylanmasına kömək edir". Az qala yapon bir inəkdən bizim bir naxır inəkdən əldə etdiyimiz mənfəətdən çox qazanc əldə edir. Burada bacarana baş qurban deməkdən də özümü saxlaya bilmirəm. Inəyi belə şəraitə malik olan yaponun, gör özü necə şəraitə sahibdir. Daha bunu açıb-ağartmağa dəymir.

Zənginlər ağ trufel adlanan və kilosu 32 000 dollara satılan bir göbələkdən ötrü də sinov gedirlər. Nə zəhrimar olduğunu, nə xeyri-bəhri olduğunu mən də bilmirəm. Heyf deyil özümüzün quzu göbələyimiz, şampinyonu deyirəm, yazda çıx irəməyə, bəxtin gətirsə bir-iki saata lap yüz kilo yığ.

Zəfəran da qiymətli bir zaddır. Onun dadını-tamını azçox bəzilərimiz bilirik. Həm də zəfəran xörəklərdə qramla işlədildiyindən adama bahalı olsa da, ağır gəlmir. Ən azından bu bitkinin tərifini rəhmətlik Mirzə Babayevin oxuduğu mahnıdan əksəriyyətimiz eşitmişik. Zəfəran da az aşın duzu deyil. Qiyməti 9600 dollardır, dünyanın ən bahalı ədviyyatıdır.

Zənginlərin süfrəsini bəzəyən bir digər təam isə mavi durnabalığından hazırlanır. Dünyanın ən iri və sürətli balıqlarından olan mavi durnabalığının əti az qala "su" qiymətinədir. Nə az, nə azacıq bir kiloqramı 8100 dollar. Nədən ki, 2012-ci ildə 222 kilaqramlıq bir durnabalığı hərracda 1,8 milyon dollara satılıb. Güman edirəm ki, bu balığı toruna salanın bəxti ayağa qalxıb, bir-iki saat ərzində kasıbçılığın daşını ata bilib.

Fransız kartofu adlanan bir delikates isə 457 avrodan özünə müştəri tapır. Düzdür bu kəmşirin kartofun yazda 10 avroya qədər ucuzlaşacağı gözlənilir. Amma belə ucuzlaşmadan sonra mən inanmıram ki, zənginlər bir də ona əl uzadıb, tamah salsınlar. Nədən ki, hamının əlinin çatdığı təama onlar əcaib bir şey kimi baxmağa vərdiş ediblər.

Zənginlərin təam siyahısını müşk pişiyi qəhvəsi ilə tamamlamaq istəyirəm. İnsanın pişik vasitəsi ilə əldə olunan belə bir əcaib zəhrimara tamah salması mənim dərimi oda döndərir. Bir kiloqramı 2800 dollardan satılan bu zibili əldə etməyin əcaib də yolu var. Bu növ qəhvə dənələri əvvəlcə müşk pişiyinin mədəsinə düşüb tərkibi dəyişir, acılığını itirir, tərkibində kofeinin həcmi azalaraq, bu biçarə heyvancığazların arxasından çölə çıxdıqdan sonra delikates statusu qazanıb, zənginlərin süfrəsinə gəlir. Və burada ay sizi zəhər-zəqqutum için deməkdən özümü saxlaya bilmirəm. Başınıza başqa içəcək qəhətdirmi ki, belə murdar zadı içirsiniz deməkdən özümü saxlaya bilmirəm. Milyarddan çox insanın aclığın əlində əsir-yesir olduğu bir dönəmdə mədəsini bu cür zibillərlə dolduranlara nə demək olar. Guya nəsə desək həmin saat peşiman olacaqlar. Əksinə deməyimizə görə bəlkə bizə gülüb, özümüzü də ələ salaraq, ey bədbəxtlər, siz nə bilirsiniz belə şeylərin qədrini deyəcəklər. Yəni dediyim odur ki, deməyimiz özümüzə qalacaq, yalandan çənəmizi yoracayıq.

**Deyəsən, söhbət dananı qurda yedirtdi, yazıma vaxtında nöqtə qoya bilmədim. İndi gəl, bu uzunluqda yazını qəzetə yerləşdir, görüm necə yerləşdirirsən?!.**

A. M. DƏLİVƏLİGİL

## SÜRÜCÜLƏR YENİ QAYDA İLƏ CƏRİMƏLƏNƏCƏK

Gürcüstan daxili işlər nazirinin müavini Arçil Talakvadze bəyan edib ki, Gürcüstanda yol hərəkəti qaydalarının (YHQ) pozulmasına görə cərimələrin bal sisteminə keçilməsi üzərində iş aparılır.

Yeni sistemə görə, sürücülük vəsiqəsi üçün hər il 100 bal köçürüləcək ki, YHQ-nın pozulmasından sonra ondan müvafiq sayda bal çıxılacaq, həm də sürücü cərimələnəcək. Bal işlənib qurtardıqda qaydanı pozanları sürücülük vəsiqəsindən məhrum edəcəklər, sənədin bərpası üçün YHQ-dan yeni imtahan vermək lazım gələcək.

"Daxili işlər nazirliyi sürücülük vəsiqəsi olan bütün sürücülər üçün bir illik 100 bal verəcək, YHQ pozulduğu halda sürücünün konkret hallara aid edilən müvafiq balı çıxılacaq. Bu dəyişiklik ona gətirib çıxaracaq ki, konkret cərimə ödənişi pozuntu üçün güzəşt yaratmayacaq", – Talakvadze deyib.

Bununla belə videoregistratora düşmüş pozuntulara görə, bal çıxılmayacaq. Pozuntuya görə, nə qədər bal çıxılacağını nazirlikdə hələ dəqiqləşdirməyiblər.




Gürcüstan daxili işlər naziri Georgi Mqebrişvili qanunvericilik dəyişikliklərini dekabrın 3-də hökumətin iclasına təqdim edib. Yenilik yol hərəkətinin təhlükəsizliyini təmin etmək, ölkənin maşın parkını yeniləşdirmək və yol hərəkətini müasir standartlara keçirmək məqsədi güdür.

## ABXAZLAR VƏ OSETİNLƏR GÜRCÜSTAN PASPORTU ALMAĞA BÖYÜK MARAQ GÖSTƏRİRLƏR

Abxaziya və Cənubi Osetiya ilə münaqişələrin tənzim olunması məsələlərinə nəzarət edən Gürcüstanın barışıq və vətəndaş bərabərliyi naziri Paata Zakareişvili bu respublikaların Gürcüstan pasportuna böyük maraq göstərmələrini bəyan etmişdir.

Onun sözlərinə görə, 2016-cı ildə Avropa Birliyi ölkələrinə viza rejiminin ləğv olunmasının gözlənildiyi bir vaxtda maraq xüsusilə artıb.

"Mən abxaz və osetin ictimaiyyəti ilə sıx əlaqə saxlayıram, bilirəm ki, orada Gürcüstan və AB arasında viza rejiminin liberallaşdırılmasını gözləyirlər", – Gürcüstanın GDS teleşirkətinə müsahibəsində Zakareişvili bildirib.

Onun sözlərinə görə, indi ildə abxaz və osetinlər 300-400 Gürcüstan vətəndaşı pasportu alırlar.

Nazir dekabrın 15-də elan olunaması gözlənilən AB ilə vizasız gediş-gəliş haqqında məsələnin həll edilməsindən sonra bu göstəricinin daha da aratacağını güman edir.

Prezident Mixail Saakaşvili dönəmində "işğal olunmuş ərazilərin" sakinlərinə "neytral pasport" təklif olunurdu. Bu sənədləri tanıyan ölkələrin sayı məhdud olduğundan, onları nadir hallarda alırdılar.



Hacı BƏKİROĞLU
hacihaciyev@hotmail.com

## MÜSƏLMANDAN QEYRİSİNİ DOST TUTAN MÜSƏLMANLAR

**Son zamanlarda Rusiya hərbi təyyarələrinin Türkiyə sərhədlərini pozması səbəbiylə Türkiyə hava qüvvələrinin rus təyyarəsini vurması dünya mediasının fikrini məşğul etdi. Mən də bu məsələyə İslami yöndən öz baxışımı dilə gətirmək istəyirəm. Düzdür, bəzi insanlar bu fikri mənim Türkiyə tərəfdarı olmam kimi yoza bilərlər, ancaq bu heç də belə deyil. Mən nə tərəfkeşlik etmək niyyətindəyəm, nə də siyasətçilik. Mən sadəcə üzüntülərimi dilə gətirmək istəyirəm.**

Bu məsələ ilə demək olar ki, dost da bəlli oldu, düşmən də. Məni üzən Çeçenistan və İran kimi bəzi İslam ölkələrinin Türkiyənin yanında deyil, qarşısında yer almasıdır. Sözarası onu da qeyd etməyi özümə borc bilirəm ki, Rusiyanın özündə də bu ölkənin təəssübünü ruslar deyil, Jirinovski, Bağdasarov, Kadırov kimi yəhudi-erməni-çeçen triosu çəkir. Qəribə deyilmi? Ancaq bir yandan da bizi sevindirən o oldu ki, Azərbaycan və Pakistan kimi dövlətlər də Türkiyənin etdiyi yaxşılıqları unutmadılar və hərtərəfli Türkiyəyə dəstək olduqlarını bildirdilər.

Sözdə özünü İslam dövləti olaraq tanıdan İranın idarəçi dindarları bir neçə gün öncə Rusya tərəfini tutaraq, "Türkiyənin İŞİD-dən neft aldığını isbat edərik" deməklə bir daha müsəlmanları qeyri-müsəlmanlara tərcih etdiklərindən də görünür ki, Quranı-Kərimdə "Ey İman edənlər! Möminləri buraxıb da kafirləri dost tutmayın. Bunu edərək Allaha, əleyhinizə açıq-aşkar bir dəlilmi vermək istəyirsiniz?" – deyə buyurulan "Nisa" surəsinin 144-cü ayəsinə ya rast gəlməyiblər və ya unutduqları üçün bu cür hərəkət edirlər.

İranın Rusiya tərəfində olması və ona dəstək olması Türkiyədə yaşayan çox sayda müsəlmana zərərdir. Sənin məzhəb fərqin ola bilər. Ancaq bu Allahın birliyini, həzrəti Məhəmmədin (səllallahu əleyhi və səlləm) onun qulu və peyğəmbəri olduğunu təsdiq edəni qeyri-müsəlmana dəyişməyinə səbəb ola bilməz.

Şəxsən mən İranı bir dəfə də olsun müsəlman bir dövlətin yanında görmədim. Azərbaycan müharibə vəziyyətinə düşdü, Ermənistanın yanında oldu, Türkiyə problemlər yaşayır Rusyanın dəstəkçisidir. Bəs sənin müsəlmanlığın harda qaldı? Hə, deyə bilərlər ki, Türkiyənin və Azərbaycanın rəhbərləri dindar deyil ki? Olsun, düşünün ki, dindar deyil. Ancaq bu ölkələrdə minlərlə, milyonlarla dindar insanlar yaşayır axı. Halbuki İranın ən böyük dəstəkçisi Türkiyə idi. Türkiyə İrana güvənərək, qardaş ölkə deyə xitab edirdi.

Keçək Çeçenistana. Çeçen xalqı Türkiyənin yanında yer aldığını bildirdi. Ancaq Rusya maşası olan prezident görünür ki, məqamını itirmək istəmir, elə bu üzdən də Putin hara, mən də ora deyir. Yəqin cənab Kadirovun da yaddaşında problemlər var. Uzun zaman rus xalqının Çeçenistana etdiyi zülmləri məgər bu qədər tez unutmaq olarmı?XIX yüzillikdəki qırğınları, XX yüzillikdəki sürgünləri, elə dünən çeçenlərin başına yağdırılan bəlaları belə tez unutmağa nə ad vermək olar?

Digər üzücü hadisə də burada yəni Gürcüstandakı bəzi müsəlman qardaşların Türkiyə əleyhinə yazıları, videoçarxları böyük sevinclə paylaşmalarıdır. Uca Allah Maidə surəsinin 51-ci ayəsində "...Sizdən kim onları dost etsə, o da onlardandır..." buyurur. Rusların və digər Avropa ölkələrinin məqsədləri bəllidir. Əgər Türkiyə güclənərsə İslam daha yaxşı yayılar qorxusu onları vahiməyə salır. Çünki indiki Türkiyə onların əliylə idarə olunan oyuncaq bir dövlət deyil. Onların qadağa qoyduğu başörtüsünü, əzanı, Quranı rəsmiləşdirərək, sərbəstlik verdi. Bu da onlara ağır gəlir, həzm edə bilmirlər. Bəs sizi narahat edən nədir, ey Rusiyasevər müsəlmanlar?

**Əziz müsəlmanlar, biz bir yumruq olmadıqca barmaqlarımızı bir-bir qıracaqlar. Dünən Fələstin, İraq, bu gün Suriya, Türkiyə plandadır. Bu planın sabahkı hədəfinin biz olmayacağımız məlumdurmu? Əsrlərdir içimizə şiə-sünnü məsələsini salaraq, bizləri bir-birimizə düşmən ediblər. Bu gün ortalığa İŞİD çıxarıblar, sabah başqa ad altında nə çıxaracaqları bəlli deyil. Gəlin özümüzə qayıdıb, Quranımıza sarılaq. Axı Uca Allah kitabında "Bütün möminlər qardaşdır..." buyurur. Gəlin qardaşımızı yadlara öz əlimizlə təslim edib, özümüzü yadların yanında biabır etməyək.**

## YERİMİZİ MÜƏYYƏNLƏŞDİRƏN ETNİK KİMLİYİMİZ

Dilindən, dinindən asılı olmayaraq, insan yaşadığı yerə, əcdadına bağlı olur. Bunun insanın mənşəyindən, genlərindən və insani instinktlərdən irəli gəldiyini düşünürəm. Gəlin qəbul edək ki, nə qədər insanlarla ünsiyyətdə olmağı sevsək də, müxtəlif xalq toplumlari arasnda bizi özümüzün hesab etdiyimiz daha çox cəlb edəcək. Yaşadığımız yerdən asılı olmayaraq, ilk baxışda nə qədər azərbaycanlı kimi görünsək də, biz türk əsilliyik. "Qarapapaq" adlanan bu etnik boy təkcə Kvemo Kartlidə yerləşən Borçalı mahalından ibarət deyil. Qarapapaq türkləri Azərbaycanın Qazax, İranın Sulduz adlanan bölgəsində,o cümlədən Anadolu yaylası daxilində bir neçə bölgədə məskunlaşmışdır. Qarapapaqların Borçalıda məskunlaşmasının əsrlərə dayanan tarixi var. "Qarapapaq" termininin hardan gəlməsi məni də maraqlandırırdı. Vaxtilə Borçalıda yaşayan qarapapaqların bir qismi şiə, bir qismi isə sunni imiş. Sünni borçalıların sünnülüyünü başlarına qoyduqları qoyun dərisindən qara rəngli papaqlar tanıdırmış .

Zaman-zaman Rusiya-Türkiyə arasında baş verən müharibələrin təsiri Cənubi Qafqazdan, o cümlədən də Borçalı mahalından yan keçməmişdir. Ümumi götürdükdə Rusiya-Türkiyə münasibətləri yaxşi və pis olmaqla bir-birini təqib edib. Məsələn, 1945-ci il hadisələrinə qədər birbirinə zidd olan bu iki ölkə 1945-ci ildən sonra strateji müttəfiq olmuşdur. Soyuq müharibənin başlanmasından sonra münasibətlər yenidən gərginləşmişdir. Zamanla münasibətlər gərginləşib-normallaşsa da, bu mövzu bu gün də aktual olaraq qalmaqdadir.

Düşnürəm ki, hər türk-rus qarşıdurmasında bizim tərəfimiz Turkiyədir. Bu axrıncı cümlənin onsuz da belə olduğunu düşündüyünüzə əminəm. Ancaq sosial şəbəkələrin və televiziya verlişlərinin sorğularında diqqətimdən qaçmayan məqam, bəzilərinin Rusiya lehinə çıxmalarıdır. Bəli, fikirlər müxtəlifdir. Əlbəttə ki, onlar da nəyəsə əsaslanaraq belə düşünürlər. Yəqin ki, millət olaraq bizim ən mənfi xüsusiyətimiz də müxtəlif fikirlərə sahib olmağımızdandır. Axı, Rusiya bizə illərdir nə verdi ki, yenə də Rusiyanin ətəyindən yapışıp, ona qibtə edək? Rusiyada təhsil alan türk əsilli soydaşlarımızı təhsildən uzaqlaşdırdıqları, öz ölkələrinə deport etdikləri üçünmü gözümüzdə böyütmüşük bu Rusiya bəlasını?

Rus-türk qarşıdurmasının Rusiyaya da bir şey verməyəcəyini düşünürəm. Axı son zamanlar Rusiya iqtisadiyyatının zəifləməsi də diqqət mərkəzindədir. Ukrayna böhranının Rusiya iqtisadiyyatını köklü sürətdə zəiflətdiyi heç kimə sirr deyil. Rusiyanin bu məqamda Turkiyə ilə qarşıdurması ona da ciddi sürətdə təsir edəcəkdir.

Son olaraq, düşünürəm ki, etnik tərkibimiz bizim həm də tərəfimizi, kimin tərəfində durmamızı müəyyən edir.

**Türk olmağımız bir cox məsələdə bizi başqa etnoslardan fərqləndirdiyi kimi, rusturk qarşıdurmasında yerimizi müəyyənləşdirməmizə də yardımçı olmalıdır.**

Anaxanım VÜQAR

## TÜRKİYƏ SƏFİRİ GÜRCÜSTANI SAKİTLƏŞDİRDİ

Zəki Ləvənt Gümrükçü rus-türk müharibəsinin mümkünlüyü barədə ehtimalları rədd edib.

Türkiyə Respublikasının Gürcüstandakı Fövqəladə və səlahiyyətli səfiri Zəki Ləvənt Gümrükçü gürcü KİV-də az-az çıxış edir, o, yerli telekanallara nadir hallarda müsahibə verir, lakin ən fəal səfirlərdən sayılır. Gümrükçü biznes dairələrlə, qeyri-hökumət təşkilatları ilə, eləcə də Borçalı bölgəsində ən çox azərbaycanlı əhalilə sıx əməkdaşlıq edir və tez-tez 1921-ci ildə bağlanmış Qars müqaviləsinə əsasən Gürcüstan ərazisində gürcü paytaxtından kənarda yeganə xarici konsulluq olan türk konsulluğunun fəaliyyət göstərdiyi Acarada olur.

Bu günlərdə Zəki Ləvənt Gümrükçü "Rusiya və Türkiyə arasında tezliklə müharibə olacağı" haqqında primitiv təhlilçilərin və siyasətçilərin çaxnaşma salan bəyanatlarını şərh etmək üçün ilk dəfə "Maestro" teleşirkətinin efirinə çıxmışdır.

"Ankara və Moskva arasında eskalasiya gərginliyinə baxmayaraq, münaqişə təhlükəsi mövcud deyil. Türkiyə böhranın gərginləşməməsi üçün hər şey edir", – Gümrükçü diplomatcasına bəyan edərək, hadisənin mahiyyəti barədə söhbət açmışdır. Onun sözlərinə görə, Türkiyə-Suriya sərhədində Ankaranın təhlükəsizlik məqsədilə terror təhlükəsinə qarşı tətbiq etdiyi "yeni qaydalar"la bağlı kifayət qədər rabitənin yoxluğu hadisə üçün əsas səbəb olmuşdur.

"Bu, kədərli hadisədir, bir halda ki, Türkiyənin hava sahəsi pozulmuşdu, biz nə etməli idiksə, onu da etmişik", – səfir qeyd edib. O, bildirib ki, artıq hadisədən sonra türk diplomatlar və hərbiçilər rus həmkarları ilə əlaqə yaratmağa çalışıblar: "Biz bu cəhdləri indiyədək davam etdiririk. Düşünürəm ki, hər şeyə aydınlıq gətirəcək dialoq vacibdir".

Ankara "gərginliyin bir dəfəlik həll edməsi" məqsədilə Moskva ilə "birbaşa əlaqəyə" üstünlük verir. Bununla belə Zəki Ləvənt Gümrükçü müsahibənin gedişində bir neçə dəfə Türkiyə və Rusiyanın "müharibə etməyəcəklərini" bəyan etmişdir.

Rusiya diplomatları narahat olan gürcü cəmiyyəti üçün analoji izahatla çıxış etmirlər. Ola bilsin ki, 2008-ci ildə beşgünlük müharibədən sonra prezident Mixail Saakaşvilinin Moskva ilə diplomatik əlaqələri kəsməsi buna səbəb olmuşdur. Tbilisidə rus, Moskvada isə gürcü səfirliyi yoxdur. Konsul xidməti üzrə texniki funksiya yerinə yetirən bir neçə Rusiya diplomatı İsveçrə səfirliyində RF-nın maraqları dairəsində çalışırlar, bu ranq isə hər şeyə rəğmən açıq bəyanat verməyin lazım olmasını və ya vacibliyini nəzərdə tutmur.

Georgi Kalarozişvili
"Vestnik Kavкaza»

## QAMBİYA DÜNYANIN BEŞİNCİ İSLAM RESPUBLİKASI OLDU

Qambiyanın prezidenti Yəhya Camme ölkəsini İslam Respublikası elan edib.

Xarici mətubatın yaydığı məlumata görə, bu barədə dövlət başçısının bəyanatında bildirilir.

"Bu gündən Qambiya İslam dövlətidir", – Yəhya Cammenin bəyanatında deyilir. Bununla belə o vurğulayıb ki, ölkə vətəndaşları istədikləri dinə etiqad edə bilərlər.

1965-ci ilədək Böyük Britaniyanın müstəmləkəsi olan Qambiyada əhalinin 90%-i müsəlmandır.

49 yaşlı Yəhya Camme 20 ildən artıqdır ki, Qambiyaya rəhbərlik edir. Ötən ildən etibarən ABŞ və Avropa Birliyi insan hüquqlarının pozulması ilə bağlı ölkəyə maliyyə yardımlarını dayandırıb. Xatırladaq ki, Qambiya prezidenti bir müddət əvvəl ölkədəki cinsi azlıqların nümayəndələrinə onların boğazlarını kəsəcəyini bəyan etmişdi.

Qeyd edək ki, indiyədək dünyada cəmi 4 İslam Respublikası mövcud idi: İran, Pakistan, Əfqanıstan və Mavritaniya. Bu siyahıya daxil olan Afrika dövləti Qambiya isə sayca beşinci İslam Respublikası oldu.

## MARQVELAŞVİLİ: GÜRCÜSTAN VƏTƏNDAŞLIĞINDAN İMTİNA ETMƏKLƏ SAAKAŞVİLİ ÖLKƏNİ TƏHQİR EDİB

Gürcüstan prezidenti Georgi Marqvelaşvili ölkənin eks-prezidenti Mixail Saakaşvilinin vətəndaşlığının dayandırılması haqqında özünün qəbul etdiyi qərarı şərh edib.

"Mixail Saakaşvili bu gün Gürcüstan vətəndaşlığından məhrum edilib ki, bu da, ölkədə mövcud olan qanunvericiliyin müəyyən etdiyi yeganə düzgün qaydadır", – Marqvelaşvil bəyan edib.

Gürcüstan prezidentinin sözlərinə görə, "siyasi planda Saakaşvilinin Gürcüstan vətəndaşlığından imtina etməsi mənim tərəfimdən yalnız mənfi qiymətləndirilir, belə ki, o, bu qərarı ilə həm prezident təsisatını, həm də ölkəni təhqir edib".

Xatırladaq ki, bu fikirləri Georgi Marqvelaşvili özünün sələfini Gürcüstan vətəndaşlığından məhrum edən fərmanı imzaladıqdan sonra söyləyib.

## MİXAİL SAAKAŞVİLİ GÜRCÜSTAN VƏTƏNDAŞLIĞINDAM MƏHRUM EDİLDİ



Gürcüstan prezidenti Georgi Marqvelaşvili eks-prezident Mixail Saakaşvilinin gürcü vətəndaşlığının ləğv olunması haqqında fərman imzalayıb.

"Başqa ölkənin vətəndaşlığını alması ilə əlaqədar digər Gürcüstan vətəndaşları ilə bərabər Mixail Saakaşvilinin gürcü vətəndaşlığı dayandırılır", – dərc olunmuş fərmanda qeyd edilib.

Saakaşvili 2013-cü ilin noyabrında ölkənin yeni prezidenti Marqvelaşvili hakimiyyətə gəldikdən sonra Gürcüstanı tərk etmişdir. Gürcüstan Baş prokurorluğu ona qarşı bir neçə cinayət işi üzrə, o cümlədən də 5 milyon dollar dövlət vəsaitini şəxsi məqsədlərə xərcləməsi barədə qiyabi ittiham irəli sürmüşdür. Sonralar Saakaşvili ölkə daxilində axtarışa verilmişdir.

Oktyabrda Gürcüstanın Ədliyyə naziri Tea Sulukiani bildirmişdir ki, nazirlik Saakaşvilini gürcü vətəndaşlığından məhrum etmə prosesinə başlayıb. Belə ki, Ukraynadan eks-prezidentin Ukrayna pasportu alması barədə rəsmi sənəd alınıb. Gürcüstan qanununa görə, Gürcüstan vətəndaşı başqa ölkənin vətəndaşlığını qəbul etdiyi təqdirdə avtomatik olaraq gürcü vətəndaşlığını itirir. Lakin bunun üçün texniki prosedur mövcuddur. Ədliyyə nazirliyinin xüsusi orqanı Saakaşvilinin vətəndaşlıq işinə dair qərar hazırlamalı və onun dayandırılması xahişi ilə ölkə prezidentinə müraciət etməlidir. Prezident isə öz növbəsində onu təsdiq etməlidir.

## AVTOMOBİLLƏRİN SIĞORTASI VƏ TEXNİKİ BAXIŞI MƏCBURİ OLACAQ

Gürcüstanın baş naziri İrakli Qaribaşvili avtomobil yanacağının keyfiyyətinin və zərərli tullantıların nisbi tənzimlənməsinin tədricən tətbiqini vacib hesab edir. Belə ki, bu ilk növbədə vətəndaşların sağlamlığına aiddir.

"Dövlət ilk növbədə vətəndaşların, xüsusilə də uşaqların sağlamlığı barədə düşünməlidir. Biz çox yxşı başa düşürük ki, adamların çoxu avtomobillərdən taksi kimi istifadə edir, bu çox vacibdir, lakin ilk növbədə biz əhalinin sağlamlığının qayğısına qalmalıyıq. Ola bilər ki, bir adam inciyəcək, amma 20 nəfər xilas olacaq", – hökumət başçısı bəyan edib.

Baş nazirin fikrinə görə, bununla əlaqədar adamların əhval-ruhiyyəsini bilmək üçün ictimai rəyi tədqiq etmək lazımdır.



"Biz bilməliyik ki, insanlar bu barədə nə düşünürlər. Mümkündür ki, birinci mərhələdə, məsələn, avtomobillərdə katalizator quraşdırmaq üçün əlavə xərclər lazım gəlsin. Elə etmək olar ki, onlar bunu möhlətlə əldə etsinlər. Elə, ya belə dövlət bu məsələni həll etməlidir. Bu, çoxlarını narahat edir. Sonra biz avtomobillərin məcburi sığortasını və texniki baxışını tətbiq etməliyik. Əlbəttə, bütün bunlar vaxt tələb edir, plan hazırlayıb onu cəmiyyətə tətbiq etmək və onun reallaşdırılmasına başlamaq lazımdır. Yaxın gələcəkdə belə fəaliyyət planı təqdim ediləcək, bunun üçünsə mən ictimai rəyin öyrənilməsini təklif edirəm", – baş nazir bildirib.

## GÜRCÜSTANDA GİZLİ PATRUL MEYDANA ÇIXIR



Gürcüstan xarici işlər nazirinin müavini Şalva Xutsişvili bildirib ki, Gürcüstanda gizli patrulun fəaliyyətə başlaması planlaşdırılır. DİN-in maşınları ölkənin küçələrində tanınma nişanları olmadan hərəkət edəcəklər.

"Gürcü polisinin imkanlarının möhkəmləndirilməsi üçün əsas yenilik gizli patrul xidmətinin tətbiqi olacaq. Bu o deməkdir ki, polis maşınları, məsələn, mikroavtobus formasında əvvəlcədən müəyyən olunmuş marşurut üzrə tanınma nişanları olmadan hərəkət edəcək. Real şəraitdə pozuntunu qeydə alacaq, sürücü ilə əlaqə qurmadan da qayda pozucusunun şəxsiyyəti müəyyənləşdiriləcək", – Xutsişvili deyib.

Nəticədə video qeydiyyata uyğun olaraq, qayda pozucusuna cərimə yazılacaq.

Bundan başqa sürət artımını müəyyənləşdirən səyyar radarların tətbiqi də nəzərdə tutulur.

Xatırladaq ki, Gürcüstanın daxili işlər naziri Georgi Mqebrişvili dekabrın 3-də qanunvericilik dəyişiklikləri paketini hökmətin iclasına təqdim edib.

Afayət AFİQ



## *MEDALIN O BİRİ ÜZÜ*

**Hər zaman boynundan basan bir qorxu, bir xof varsa sən inkişaf edə bilməzsən. Çünki, səni sıxırlar. Daxilən və xaricən. Dünyaya açılan pəncərənin qarşısında qorxular dəmir barmaqlıq kimi çəkilir. Səni sıxır, həm sənə, həm də arzularına əngəl olurlar. Hal o yerə çatır ki, sənə arzu etmək, xəyal qurmaq belə yasaq edilir. Yazılmadan, deyilmədən. Və qəribəlik də orasındadır ki, siz elə bilirsiniz bütün bunları qeybdən sizin beyininizə yazır, qulağınıza pıçıldayırlar. Qorxunun da nə əli var, nə də ayağı. Siz bu əlsiz-ayaqsız bəlanın nə olduğunu bilmədən, necəliyini anlamadan səksəkəyə düşürsünüz. Acınacaqlısı odur ki, bilmədiyiniz qorxunun özündən qorxuya düşürsünüz. Heç bu hissin nə olduğunu araşdırmadan, cikinə-bikinə bələd olmadan qorxuya məğlub olub, ruhunuzu qorxu adlandırılan şeytana təslim edirsiniz. Sadəcə ruhunuza zərrə-zərrə çökən, sizdən biri olan, bir parçanıza çevrilən qorxular sizi siz olmaqdan da yayındırır, sizi siz olmaqdan çıxarır.**

Sizi qürurunuzla, sevdiklərinizlə, məqsədlərinizlə təhdid edərək, qol-qanad açmağa imkan vermirlər. Əslində, kimlər imkan vermirlər kimi bir sual meydana çıxsa, doğru-düzgün bir cavab da verə bilmərik. Zira, bu işin tam bir səbəbkarı yoxdur. İnsan özü öz arzularının qatilidir.

Uzağa getmədən, dağa-daşa düşmədən özümüzdən yazacam. Sizdən, qonşunuzdan, qohumunuzdan, yaxın ətrafınızdan. Dillənməkdən qorxan, utanan insanlarımızdan. Kameradan qorxuruq. Niyə, nə üçün bilmirəm. Çox böyük ehtimal siz də bilmirsiniz. Amma, qorxu və utanc qanımıza işləyib. Boynumuzdan basıb nəfəs almağa imkan vermir. Axı kimdən qorxuruq, nə üçün qorxuruq? Nə üçün kölgəmizdən ürkürük? Qorxan gözə çöp düşər məsəlini biz, bizim babalarımız yaratmayıblarmı? Axı, biz niyə qoruxmalıyıq ki, biçarə gözümüzə də çöp düşsün.

Gürcülərlə və ya istənilən başqa xalqla bizi müqayisə etmək ən zəhləm gedən işlərdən biridir. Lakin, indi başqa çarəm yoxdur. Ona görə də istəməsəm də bu müqayisə metodundan istifadə etməli oluram. Bax, gürcünün qocası, ən ucqar kəndindən qırağa çıxmayanı belə kim olur-olsun, istədiyini, ürəyindən keçəni çəkinmədən söyləyə bilir. Haqqını tələb edə bilir. Biz isə susuruq. Haqqımız olanı da istəyə bilmirik. Kamera tuşlanıb, mikrofon uzadılıb bir şey soruşan olanda silah tuşlanmışdan betər oluruq, bətimiz-bənizimiz qaçır. Ordaca bir addımlıq meydanda dilimiz topuq çalır. İki sözü bir-birinin ardına qoşa bilmirik. Ən pisi, ən ağlamalısı və qorxmalısı isə budur ki, bu hala düşənlərin yarıdan çoxu təhsili, savadı yerində olanlardır. Danışmağımıza əngəl olan savadsızlıq deyil. Şəhər mərkəzində yaşayanımız da dünyadan xəbərsiz kimi davranır. Savadsızımız öz halına gülür. "Radio dinləyirsinizmi?" – deyə sual ünvanladığımız 28-30 yaşlarında bir gənc: "bisavad şeyəm, nə bilirəm radio nədir" – şəklində cavab verir. Gülür. Uzaqlaşır. Əslində isə o, ağlamaq yolunu seçməlidir. Çünki bunun üçün onun səbəb axtarmasına belə lüzum yoxdur, ən böyük səbəb elə onun tutduğu mövqe və ya düşdüyü vəziyyətdir. Başqa bir insan kameranı, mikrofonu gördüyü zaman dabanına tüpürərək qaçır. Başqa zaman qəhrəmana çevrilməyi əzbər bilənlərimiz lazım olan yerlərdə əmlik quzuya çevrilirlər.

Küçədə özünü kəndin-kəsəyin, elin-obanın sahibi kimi aparanlar, hətta iş o yerə çatır ki, özlərinin millətin-xalqın ağılbəndi olmalararını iddia edənlər, vicdan, namus, din dərsi keçənlər ( əlbəttə ki, bunların hər birindən bixəbər olanlar ), iki sözü yazmaq, iki söz cəhənnəmə adlarını yazmaqda acizdirlər. Amma ağızları genişliyə düşəndə baxırsan ki, iri-iri danışa bilirlər, normal insan olmaqdan isə oddan-sudan qorxan kimi qorxurlar.

**Ən acı gerçəklik isə qorxunun, normal ola bilməməyin acısı, tasası ömür boyu nə qədər o yan, bu yan eləsək də, nə qədər əlləşib çalışsaq da yaxamızdan əl çəkmir ki, əl çəkmir. Bu da, bizim medalımızın hər iki tərəfinin işə yaramaz olması üçün ən başlıca səbəb olur.**



Sahib MUSTAFA
sahib1975.sm@gmail.com

## DÜNYA İQTİSADİ BÖHRANININ GÜRCÜSTANA TƏSİRİ

**Dünyada güclü mövqe tutan dövlətlər zaman-zaman siyasi təzyiq vasitəsi kimi iqtisadi amillərdən məharətlə istifadə edirlər. Son bir neçə onillikdə fərqli siyasi idealogiyalar ətrafında qütbləşmiş dövlətlər bu baxımdan savaş meydanın fəal aktyorlarına çevirilmişlər. Kiçik dövlətlərin taleyi isə bu qütbləşmənin hansı səmtində qərar tutmasından asılı olur. Qlobal dünya iqtisadiyyatının qaçılmaz gerçəkliyi səbəbindən və ya süni şəkildə yaradılmasından asılı olmayaraq, dünya iqtisadi böhranı fonunda Gürcüstanın yeri onun vətəndaşlarını maraqlandıran ən böyük narahatçılıqdır.**

İlk öncə qeyd edək ki, Gürcüstan inzibati məkan baxımından kiçik ölkə olduğundan dünya iqdisadiyyatında ümumi çəkisi də kiçikdir. Təbii sərvətlər baxımından da zəngin olmayan Gürcüstanın öz daxili resursları hesabına davamlı və stabil iqdisadi kurs yönləndirməsi reallıqdan uzaqdır. Bu istəyi gerçəkləşdirmək üçün mütləq xarici maliyyə və sərmayə qaynaqlarının labüdlüyü şərtdir. İkinci bir tərəfdən də iri və sırf milli dövlət lahiyələrinin həyata keçirilməsi yalnız Dünya Bankı, Beynəlxalq İnkişaf və Yenidənqurma Bankı, Beynəlxalq Valyuta Fondu kimi tutarlı maliyyə institutlarından uzunvədəli kreditlər alınması hesabına mümkündür. Lakin, hal-hazırda Gürcüstanın istər konkret olaraq ayrı-ayrı ölkələrə, istərsə də yuxarıda adları çəkilən banklara yetərincə borcları var.

2015-ci il sentyabr ayının sonunda Gürcüstan Milli Bankının açıqladığı məlumata əsasən həmin dövrə görə Gürcüstanın ümumi xarici borcu 14 milyard 135 milyon dollardan çoxdur. Bu isə ölkənin Ümumi Daxili Məhsulunun 90%-dən çoxu deməkdir. Düzdür, bu borc kateqoriyasına dövlətlə yanaşı, onun ayrı-ayrı şirkətləri və fiziki şəxslərinin borcları da daxildir. Yenə də ölkənin Milli Bankının açıqlamasına görə, hal-hazırda sırf Gürcüstan hökümətinin xarici borcu 6 milyard dollara yaxındır. Bu gün ölkəmizin 17 dövlətlə ikitərəfli maliyyə-kredit sövdələşməsi nəticəsində 720 milyon dollar həcmində ödəniş gerçəkləşdirməsi gərəkdir. Onların içərisində 277 milyon dollarla Almaniya birincilər sırasındadır. Bundan başqa, Gürcüstanın Dünya Bankına 1 milyard 223 milyon, Asiya İnkişaf Bankına 658 milyon, Beynəlxalq İnkişaf və Yenidənqurma Bankına 615 milyon, Beynəlxalq Valyuta Fonduna 112 milyon dollar borcu vardır. Ümumiyyətlə, Gürcüstanın ümumi xarici borcu adambaşına 3,5 min dollar təşkil edir ki, bu da ölkə vətəndaşlarının ümumi maddi rifahı ilə müqayisədə böyük göstəricidir.

İqtisadi embarqolarla çarpışan Rusiya iqdisadiyyatının günbəgün tənəzzülə uğraması, milli valyutası rublun dollarala müqisədə sürətlə dəyərdən düşməsi bu dövlətlə iqdisadi bağlılığı olan ölkələrin iqdisadiyyatına bu və ya digər dərəcədə neqativ təsir edəcəyi, bu ölkələrin də istər-istəməz bu böhrandan sözün mənfi mənasında pay alacağı heç kimə sirr deyil. Artıq bir barrel neftin qiymətinin 37 dollaradək enməsi, 1 dolların məzənnəsinin 72 rubl təşkil etməsini ekspertlər Kreml üçün böhran həddi kimi dəyərləndirirlər. Həmçinin, məhz həmin ekspertlər tərəfindən yaxın 7 ildə neftin qiymətlərində nəzərəçarpacaq bahalaşmanın gözlənilmədiyi vurğulanıb. Bu da iqtisadiyyatı neftə bağlı olan ölkələrin, o cümlədən də Rusiyanın təhlükəli dönəmə qədəm qoymasından xəbər verir.

**Dünyada tüğyan edən iqdisadi böhran və qeyri-stabil siyasi durum Gürcüstanın iqdisadiyyatının inkişafını ləngidən faktorlar olacaqdır. Hələ beynəlxalq rəqabətə davamlı iqtisadi insitutların tam formalaşmadığı ölkəmiz üçün regionda və dünyada sülhin təmin olnması əsas şərtdir.**

## GÜRCÜSTANDA İNVESTİSİYA QOYULUŞUNUN HƏCMİNƏ GÖRƏ AZƏRBAYCAN LİDERDİR

2015-ci ilin üçüncü rübündə Gürcüstanda birbaşa xarici sərmayənin həcmi 489 milyon dollar təşkil edib ki, bu da 2015-ci ilin ikinci rübündəkindən 38% çox olsa da, 2014-cü ilin üçüncü rübündəkindən 33% azdır.

2015-ci ilin üçüncü rübündə Gürcüstan iqtisadiyyatına qoyulan investisiyanın həcminə görə, Azərbaycan liderdir. Gürcüstan milli statistika xidmətinin məlumatına görə, bəhs olunan dövrdə Azərbaycan 173 milyon dollar investisiya qoyub ki, bu da birbaşa xarici investisiyanın 35%-i deməkdir.

Niderland 55 milyon dollar və ya 11%-lə ikinci, Türkiyə 43 milyon dollar və ya 9%-lə üçüncü yerdədirlər.

2015-ci ilin doqquz ayı ərzində Azərbaycan 392 milyon dollar investisiya qoymaqla birinci, Hollandiya 145 milyon dollarlıq investisiya ilə ikinci, Türkiyə 111 milyon dollarlıq investisiya ilə üçüncü olub.

2015-ci ilin ilk üç rübü ərzində Gürcüstan iqtisadiyyatına dəqiqləşdirilməmiş məlumatlara əsasən, 1 milyard dollardan çox, dəqiqləşdirilmiş məlumatlara görə isə keçən ilin müvafiq dövründəkindən 17% az investisiya yatırılıb.

## YAYDA BAZARA ÜZÜM ÇƏYİRDƏKLƏRİ YAĞI ÇIXARILACAQ

"Schuchmann Wines Georgia" şərab emalı şirkəti üzüm çəyirdəyi yağının istehsalı prosesinə başlayıb, yağ bazara yayda çıxarılacaq.

Şirkətin baş direktoru Nutsı Abramişvilinin sözlərinə görə, üzüm çəyirdəkləri hazırda qurudulma prosesindədir, onların tam qurudulması üçün bir neçə ay vaxt lazımdır. O, bildirib ki, istehsaln birinci mərhələsi ənənəvi metodlarla həyata keçirilir, çəyirdəklər əllə seçilir, bunun üçün əlavə adamlar işə götürülüb. Abramişvilinin sözlərinə görə, artıq üzüm çəyirdəyi yağının alınması üçün müasir istehsaldan yazda istifadə edilməyə başlanacaq, yağ isə yayda hazır olacaq.



"Schuchmann Wines Georgia"nın baş direktorunun bildirdiyinə görə, birinci mərhələdə bu ərzaq şirkətin restoranlarına daxil olacaq, sonra isə yerli şəbəkəyə paylanacaq, onunla aşbazlar tanış olacaq. Çünki tələbat yaratmaq vacibdir. Onun sözlərinə görə, istehsal qaydaya salındıqdan sonra, gələcəkdə məhsulun xaricə göndərilməsi nəzərdə tutulur.

Baş direktor qeyd edib ki, üzüm çəyirdəkləri dünyada qiymətli məhsul hesab edilir və zeytun yağının qiymət kateqoriyasına daxildir.

## GÜRCÜSTAN 2025-Cİ İLDƏ 11 MİLYON ƏCNƏBİ QƏBUL EDƏCƏK

Gürcüstan turizm administrasiyasının rəhbəri Qeorqi Çoqavadze bəyan edib ki, 2025-ci ilə doğru Gürcüstana gələn əcnəbilərin sayı 11 milyon nəfərə çatacaq.

Onun sözlərinə görə, artıq turizimin inkişaf etdirilməsinin 10 il müddətinə strategyası hazırlanıb. Bu strategiyanın hazırlanmasında hökumət və özəl sektorun nümayəndələri iştirak ediblər. Proqramın məqsədi turistlərin sayını və turizm sektorunun mənfəət səviyyəsini artırmaqdır.

“2009-cu ildən 2013-cü ilədək Gürcüstanda turizmin inkişaf tempi dünyada ən yüksək olanlardandır. Bu dövr ərzində gələnlərin sayı 1,5 milyon nəfərdən 5,4 milyon nəfərə, turist sahəsinin gəlirləri isə 475 milyon dollardan 1,8 milyard dollara yüksələrək, dünya turizm sahəsinin inkişafından 20 dəfə çox olmuşdur. Müasir turizm yüksək keyfiyyətli xidmət, infrastrukturun və turist məhsullarının daim inkişafını tələb edir. Biz bu məqsədlə turizm sektorunun inkişafı yolundakı bütün problem və maneələri nəzərə alan strategiya işləyib hazırlamışıq”, – o, deyib.

İqtisadiyyat naziri David Kumsişvilinin sözlərinə görə, strategiya 2025-ci ilədək əlavə turistlər cəlb etməyin yollarını göstərir. Nazir bəyan edib: “Biz dəqiq təsəvvür edəcəyik ki, ildə nə qədər turist cəlb etmək lazımdır. Hal-hazırda turizm sahəsinin gəlirləri 1,8 milyard dollar təşkil edir, məqsədimiz bu göstəricini 5,5 milyard dolları adək artırmaqdır. Həmçinin turizm biznesində məşğul olanların sayını iki dəfə artırmağa çalışırıq”.

Rəsmi məlumatlara görə, 2015-ci ilin yanvar-noyabr aylarında Gürcüstana 5 431 723 nəfər əcnəbi gəlib. Bu da 2014-cü ilin analoji dövrü ilə müqayisədə 6,9% çoxdur.

## ÖTƏN BİR İL ƏRZİNDƏ İNFLYASİYANIN SƏVİYYƏSİ 6,3% TƏŞKİL EDİB

2015-ci ilin noyabrında Gürcüstanda inflyasiya ötən ayla müqayisədə 0,3% təşkil edib. Gürcüstan Milli statistika xidmətinin məlumatına görə, bu dövrdə ərzaq və alkoqolsuz içkilər 0,9% bahalanıb ki, bu da əsasən tərəvəz və meyvənin qiymətinin artması ilə şərtlənir. Mənzil, su, qaz və digər növ yanacaqlar 1% bahalanıb. Yanacaq-sürtkü yağlarının 2,9% ucuzlaşması nəticəsində isə nəqliyyat 1,4% ucuzlaşıb.

2015-ci ilin noyabrında illik inflyasiya ötən ilin eyni dövrü ilə müqayisədə 6,3% təşkil edib. Il ərzində ərzağın və alkoqolsuz içkilərin qiyməti əsasən üzüm və meyvənin 22,9%, yağ və piylərin 15,3%, qəhvə, çay, kakaonun 10,2% bahalanması hesabına 5,2% artıb. Bu dövr ərzində tibb məhsullarının, aparat və cihazların bahalanması hesabına səhiyyə xidmətlərinin qiyməti 11,5% yüksəlib.

Elektrik enerjisi, su, qaz, digər növ yanacaqlar və mənzil 9,2% bahalanıb.

## GÜRCÜSTAN MALİYYƏ NAZİRLİYİ ÖLKƏNİN DAXİLİ DÖVLƏT BORCUNU HESABLADI

Gürcüstan maliyyə nazirliyinin məlumatına görə, 30 noyabr 2015-ci ildə Gürcüstanın daxili dövlət borcu 2,185 milyard lari və ya 910,4 milyon dollar təşkil etmişdir. Ilin əvvəlindən daxili dövlət borcu 287 milyon lari və ya 119,5 milyon dollar artmışdır.

Maliyyə nazirliyindən bildiriblər ki, borcun ümumi məbləğinin 1,639 milyard larisini və ya 683 milyon dollarını xəzinə qiymətli kağızları üzrə borclar, 546 mln larisini və ya 227,4 milyon dollarını digər qiymətli kağızlar üzrə borclar təşkil etmişdir.

Verilən məlumatlara tarixi borc (əhalinin SSRİ dövründə əmanətləri) adlanan borclar daxil deyil.

## 2016-CI İL SEÇKİLƏRİNDƏ "GÜRCÜ ARZUSU" KOALİSİYASINA İVANİŞVİLİ BAŞÇILIQ EDƏCƏK

Bidzina İvanişvili gələn il ölkə parlamentinə seçkilərdə özünün yaratdığı "Gürcü arzusu" koalisiyasına başçılıq edəcək. Bu barədə parlament əksəriyyətinin üzvü, vitse-spiker Zviad Dzidziquri məlumat verib.

O, qeyd edib ki, Bidzina İvanişvilinin seçkilərdə iştirakı koalisiya üçün mühüm amil olacaq.

"Biz çox ümid edirik və cənab Bidzinanın özü də bir neçə dəfə bəyan edib ki, 2016-cı ilin parlament seçkilərində fəal olacaq", – vitse-spiker bildirib.

## AVROPA BİRLİYİ 2016-CI İLİN ORTALARINDA GÜRCÜSTAN ÜÇÜN VİZANI LƏĞV EDƏCƏK

Avropa Birliyi yaxın vaxtlarda Ukrayna və Gürcüstan vətəndaşları üçün viza rejimini ləğv edəcək. Bu barədə Brüsseldəki məlumatlı mənbələrə istinadən Almaniyanın Die Welt qəzeti məlumat yayıb.

Qəzetin məlumatına görə, hər iki ölkə vətəndaşlarına Avropa Birliyi ölkələrinə vizasız getmək üçün 2016-cı ilin ortalarından icazə veriləcək.

Məlumat verilir ki, Avropa Komissiyasının dekabrın 15-də təqdim edəcəyi hesabatda vizanın ləğv olunması üçün Kiyev və Tbilisinin şərtləri yerinə yetirmələri müsbət qiymətləndirəcək. Avropa Komissiyasının bu cür qiymətləndirməsi Gürcüstan və Ukrayna vətəndaşları üçün vizanın ləğv edilməsi işində Avropa Birliyinə üzv dövlətlərin razılığına zəmin yaradacaq.

Bununla belə qeyd olunur ki, Brüsselin fikrincə, Kiyev 2016-cı ilin yazınadək bir sıra sahələrdə, xüsusilə də korrupsiya ilə mübarizədə işləri yaxşılaşdırmalıdır.

Qəzet dəqiqləşdirir ki, gürcülər və ukraynalılar üçün viza rejiminin ləğv olunması yarım il müddətində üç ay Avropa Birliyində yaşamanı nəzərdə tutsa da, AB ölkələrində işləməyi qadağan edir.

## AVROPA PARLAMENTİ KRIMIN İLHAQINA GÖRƏ RUSİYANI QINADI

Krımın ilhaqına və Ukraynanın şərqində Rusiyanın başlatdığı müharibəyə dair Avropa parlamenti olduqca sərt qətnamə qəbul edib.

Bu barədə Joinfo.ua dekabrın 11-də Strasburqda qəbul edilmiş qətnaməyə istinad edərək, məlumat yayıb.

"Avropa parlamenti Ukrayna hökumətini onun ərazisində törədilmiş bütün hərbi cinayətləri araşdırmaq üçün ixtiyarında olan bütün vasitələrdən istifadə etməyə çağırır; beynəlxalq birliyi, o cümlədən də Haaqa tribunalını Krımın qeyri-qanuni anneksiyası və Şərqi Ukraynadakı münaqişə zamanı baş vermiş potensial cinayətlərin araşdırılmasına başlamağa çağırır", – qətnamədə deyilir.

Bundan başqa qurum Rusiya qoşunlarının yarımadanı işğal etməsindən sonra Krımda daimi hal alan insan hüquqlarının pozulmasını pisləyib. Qeyd edilib ki, Krımda hədə-qorxu gəlmək, adamların zorla oğurlamaq halları artır, senzura tətbiq olunub, söz azadlığının boğulması və azlıqların, xüsusilə də etnik və milli azlıqların təqibi qeydə alınır.

"Avropa parlamenti Ukraynanın ərazi bütövlüyünü dəstəkləyən nümayişlərdə iştirak etmiş Kırım tatarlarının sistemli şəkildə təqib olunmasını qınayır, onlarla həmrəy olduğunu ifadə edərək, tezliklə vəziyyəti yaxşılaşdırmağa çağırır", – sənəddə qeyd edilir.

Avropalı deputatlar həmçinin Rusiya hakimiyyətini Kırım tatarlarının Məclisinin təqibinə son qoymağa çağırıb və Rusiyadan Kırımda insan hüquqlarını təmin etməyi tələb ediblər.

Xatırladaq ki, Avropa parlamenti bir qədər əvvəl Rusiyanı özlərinin strateji tərəfdaşlıq siyahısından çıxarmağı qərara almışdı.

## 995 ƏCNƏBİ GÜRCÜSTANDAN SIĞINACAQ İSTƏYİR

Gürcüstanda beynəlxalq müdafiə altında olan cəmi 1192 adam yaşayır, 995 nəfər əcnəbi isə sığınacaq almaq xahişi ilə qeydiyyatdan keçib.

"Holidey İnn" mehmanxanasında xüsusi hesabatın təqdimat mərasimində Gürcüstanın xalq müdafiəçisi bəyan edib ki, 2015-ci ilin oktyabr ayının məlumatlarına görə, Gürcüstanda humanitar statusu və qaçqın statusu olan 1192 şəxs yaşayır və onların çoxu İraq, Ukrayna, Rusiya və Suriya vətəndaşlarıdır.

Uçi Nanuşvilinin sözlərinə görə, qanunvericilikdə düzəlişlər edilməsinə baxmayarq, müəyyən boşluqlar qalmaqdadır.

"Bunlardan biri sığınacaq almaq istəyənin ərizəsinə baxılma müddətilə bağlıdır. Bəzi hallarda bu, 9 ayadək davam edir. Bu, xüsusən də söhbət sığınacaq axtaran şəxsdən gedirsə kifayət qədər böyük dövrdür. Ərizəyə rədd cavabı verildiyi təqdirdə şikayət etmək müddətilə bağlı da boşluqlar mövcuddur. Bu müddət 15 gün təşkil edir, o da kifayət deyil, biz bu müddətin bir ayadək uzadılmasını xahiş edirik. Bizim qanunvericiliyimizi beynəlxalq standartlara yaxınlaşdırmaq lazımdır ki, bu da vizanın liberallaşdırılmasının fəaliyyət planının tələblərindəndir", – xalq müdafiəçisi bildirib.

Hesabatın təqdimatında dövlət idarələrinin, diplomatik korpusların və QHT-in nümayəndələri iştirak ediblər.

## 2015-Cİ İLİN ƏVVƏLİNDƏN AVROPAYA MİLYONA YAXIN MÜHACİR GƏLİB

Beynəlxalq Mühacirət Təşkilatının dekabrın 11-də yaydığı məlumata görə, 2015-ci ilin əvvəlindən Avropaya milyona yaxın qaçqın və mühacir gəlib.

Onlardan 924 647 mühacir və qaçqın dəniz yolu ilə Avropaya gedib çıxa bilib. Ən çox köçkün qəbul edən ölkə Yunanıstan olub. Yunanıstan 800 mindən artıq adam qəbul edib.

Təşkilatın məlumatına görə, ilin əvvəlindən Avropaya cəmi 985 312 adam gəlib.

Bununla belə ilin əvvəlindən dəniz yolu ilə Avropa sahillərinə çıxmağa cəhd edən 3671 nəfər şəxs ölüb və ya itkin düşüb.



Anar RAFİQOĞLU
anar.rafiqoglu@gmail.com



## *TEATRLARIN İCARƏ QİYMƏTLƏRİ DODAQ UÇUQLADIR*

**Dəyərli oxucular! Ötən yazılarımda da ölkəmizdə sənət sahəsinin və ümumən sənətkarların yaşadığı bəzi sıxıntılardan söz açmışdım. Bu dəfəki yazım Tbilisidəki teatrların icarə qiymətləri haqqında olacaq.**

Tbilisi qədimlərdən bir çox sənətin beşiyi hesab olunan və çoxlu sayda sənətkarı öz qoynunda barındıran xoşgörülü bir şəhərdir. Burada hər zaman önəmli aktyorlar, rejissorlar, rəssamlar, musiqiçilər yetişib. Son zamanlarda ölkədə maddi vəziyyətin o qədər də ürəkaçan olmaması üzündən söhbət açdığımız sahədə xeyli geriləmələr müşahidə olunmaqdadır.

Fürsətdən istifadə edib vurğulamaq istəyirəm ki, 21-22 dekabr günlərində Tbilisidə, Atoneli teatrında "Zarafat Kolleksiyası 2" adlı tamaşamız olacaq. Bunu niyə qeyd etdim? Ona görə ki, Atoneli teatrı kiçik bir teatrdır və burada keçirdiyimiz tamaşaya gələn sənətsevərlərin əksəriyyəti, niyə böyük teatrda tamaşa vermirsiniz deyə sual edirlər. Çox aktual sualdır. Bəs gerçəkdən biz niyə böyük teatrda tamaşa vermirik? Sizcə mən istəmərəmmi 300-400 nəfərlik tamaşaçı kütləsi qarşısında çıxış edim? İnanın ki, çox istərəm. Lakin bu indiki halda mümkün deyil. Ən azından Tbilisidə sponsorsuz qeyri-mümkündür. Əslində, həyatda mümkünsüz heç nə yoxdur. "Parayı verən düdüyü çalar" deyə bir söz var. Hər şey puldan asılıdır. Di gəl, pul da elə bir şeydir ki, adı ortaya çıxan kimi hamı yoxa çıxır. Məcbur biz də öz işimizi özümüz həll etməli oluruq. Yeddi laridən bilet satıb, yığılan pulla teatrın icarə haqqını və digər xərcləri ödəyirik. Beləcə, bizləri könüllü olaraq seyr etməyə gələn tamaşaçılardan başqa, heç kimə də minnətimiz olmur. Bizim biletdən əldə etdiyimiz pulla Atoneli kimi kiçik teatrları kirayələmək imkanımız olur.

Çünki böyük teatrların icarə haqqı elə fantastik rəqəmlərdən ibarətdir ki, biz bileti lap 20-30 laridən də sata bilsək, yenə xərclərin ödənməsi mümkün deyil. Hətta, mümkün olsa belə, çox adamın 20-30 lari pul verib bilet alması real görünmür. Yəqin indi maraqlanır və fikirləşirsiniz ki, görəsən hazır tamaşanı nümayiş etdirmək üçün bu teatrlarda icarə haqqı nə qədərdir? O zaman çox da uzatmadan yazım. Gənc Tamaşaçılar Teatrının 383 nəfərlik böyük zalının icarə qiyməti 4000 lari, 93 nəfərlik zalının icarə qiyməti isə 1500 laridir. Marcanişvili Teatrı – 436 nəfərlik böyük zalın icarə qiyməti 8000 lari, 136 nəfərlik ikinci zalın qiyməti 3000 lari, 102 nəfərlik kiçik zalın qiyməti isə 1500 laridir. Rustaveli Teatrı – paytaxt Tbilisinin və Gürcüstanın ən önəmli teatrıdır. Bəs bu tarixi teatrda tamaşa və ya hər hansı bir tədbir keçirmək istəsəniz, bir neçə saatlıq icarə üçün nə qədər pul ödəməlisiniz?

Heyrətlənməyin, amma həqiqətdir. 182 nəfərlik kiçik zal üçün 3000 lari, 262 nəfərlik ikinci zal üçün 7000 lari və 778 nəfərlik nəhəng zal üçün 14000 larinizdən keçməlisiniz.

Tbilisidəki digər böyük teatrların qiymətləri də üç aşağı, beş yuxarı eynidir. Ona görə hər birini ayrı-ayrılıqda yazıb, uzunçuluq etmək istəmirəm. Vəziyyət bundan ibarətdir. Bu şərtlərdə böyük zallar bizim üçün xəyal olaraq qalır. Çünki yalnız bilet satışlarından əldə edilən gəlirlə bu teatrların icarə pulunu ödəyə bilmək sadəcə xəyaldır. Bəs teatrların icarə qiymətləri niyə bu qədər bahadır sualına gəldikdə isə, bu mövzuya mən Tbilisidə fəaliyyət göstərən "İkinci ev" teatrının rejissoru Roland Kardava ilə etdiyim söhbətdə də toxunmuşdum. Təcrübəli rejissor vurğulamışdı ki, qiymətlərin yüksək olmasına tələbatın çox olması təsir göstərir. Tbilisidə son illərdə hamı tamaşa, konsert hazırlayır. Bu işi bilənlər də, bilməyənlər də nələrsə nümayiş etdirmək istəyirlər. Teatrlar da keyfiyyəti və adının nüfuzunu qorumaq üçün bu cür yüksək icarə qiymətləri təyin edir. Əks təqdirdə, hər yoldan ötən Rustaveli teatrında çıxış edər, teatrlar öz adlarına kölgə salar və adi bir məkana çevrilərlər.

**Yazımın sonunda onu qeyd etmək istəyirəm ki, bəli, biz də böyük zallarda çıxış etmək istəyirik. Ancaq məncə, əsas olan zalın böyüklüyü, tamaşaçıların sayı deyil, görülən işin keyfiyyətidir.Biz isə sizi keyfiyyətinə əmin olduğumuz bir tamaşaya dəvət edirik. "Zarafat Kolleksiyası"nda görüşmək ümidi ilə...**

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.
Yeni YOL
15 dekabr 2015-ci il
№0013 (13)
yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | "იენი იოლი" საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci ildən nəşr olunur

# SƏNƏT – GÜNƏŞƏ İŞIQ VERƏ BİLƏN GÜC

*"Yeni yol"un daimi oxucuları sənətə olan sevgimi diqqətdən qaçırmamış olmalıdırlar. Çünki, bu mövzuda hər zaman danışır, hər fürsət tapdıqca danışmağa, sənətdən söz açmağa çalışıram. Çünki mən də dünyanı və insanlığı xilasa aparan yolun sənətdən keçdiyinə inanlardanam. Yalnız sənət kainatı əsrlərdən əsrlərə, ölkələrdən ölkələrə daşımaq və yaşatmaq iqtidarındadır. Bu böyük gücə sahib sənət nümunələri isə, daima kiçik yerlərdən, qaranlıq künclərdən qalxıb aləmə nur saçan günəşi xatırladır. Yerlibazlıq kimi, millətçilik kimi səslənməsini istəmirəm, ancaq dünyanı işıqlandırmağa bizim də bir günümüz doğanda mən tamarzı kimi sevinirəm, bunu danmaq, daldalamaq olmaz. Əminəm ki, sizlər də elə...*



Bu sayımızda Qardabanidən olan gənc rəssamla söhbətimdən parçaları nəzərinizə çatdırmaq istəyirəm. Adın insan həyatına təsir göstərdiyi haqqında hər zaman fikirlər söylənib. Elə yazımızın qəhrəmanının da sənəti ilə adının tam üst-üstə düşdüyünün şahidiyik. Həmsöhbətim Rasim Həsənov 23 yaşındadır. Əslən Qardabanidən olan Rasim uzun müddət Belorusda yaşadığını, daha sonra doğulduğu şəhərə qayıtdığını bildirir. O, rəsmə başlamasında bu mühit dəyişikliyinin də rol oynamış ola biləcəyini söylədi. O, 13 yaşından rəsm çəkməyə başladığını və 15 yaşına qədər qrafika çəkdiyini deyir. "Düzünü deyim ki, bu sənətə ciddi yanaşacağımı heç vaxt düşünmürdüm. Lakin, Qardabaniyə qayıtdıqdan sonra dostların stimul verməsi ilə yenidən çəkdim" – Rasim, onu həvəsləndirən dostunu Allahın məhz bu sənəti davam etməsi üçün qarşısına çıxardığına inanır. Düşünürəm ki, haqlıdır. Onun həvəsini söndürə də bilərdilər. Amma, xoşbəxtlikdən bu baş verməyib. Sənət bir qığılcımla alovlana biləcək qədər güclü, bir bəd nəfəslə sönə biləcək qədər zəifdir bəzən.



O, rəsmi çəkərkən sırf hər hansı mövzu və janr üzərində düşünmədiyini, içində olduğu durumun, hisslərin ona diqtə etdiyi kimi çəkdiyini qeyd edir və rəsmi poeziya ilə müqayisə edir, rəsmin də rəssamın təxəyyülündə bədahətən canlandığını düşünür. Sənət növlərindən niyə məhz rəsmi seçdin sualımı, gənc dostumuz belə cavablandırır: "Fikirlərimə uyğun olaraq işlədiyim əsər istənilən janr və mövzuda ola bilər. Mən nə qədər rəsmdən uzaqlaşmağa çalışsam da, Allah məni özümdən xəbərsiz, rəsmə doğru çəkib. Sanki, Tanrı mənə sənin işin budur demək istəyir. Elə bu gücə görə, məncə, rəsm!"

Rasim Həsənov Salvador Dali, Rembrandt, Pikasso kimi rəsm dahilərinin əsərlərini sevərək izlədiyini, lakin heç birinin ona təsir etmədiyini deyir.

Onun əsərlərində əksini tapan mövzular əsasən müharibə, xeyir və şər, ölüm mövzularıdır. Həmyerlimiz bu günlərdə ilk uğuruna imza atdı. Gürcüstan milli kitabxanasında, dekabrın



14-də Rasim Həsənovun "Xeyir və Şər" adlı ilk fərdi sərgisi təşkil edildi. Müəllifin "Müharibə", "Kəfəndən çıxan ruh", "Vəhşi at əhliləşdirilərkən", "Həyat qızıldır", "Qəbul edilməyən şair" və s. kimi əsərləri gürcü və azərbaycanlı gənclərin, sərgini ziyarət edən digər qonaqların yüksək marağına səbəb oldu. Rasimin yaradıcılığını digərlərindən fərqləndirən xüsusiyyət isə, onun instaliyasiyadan, sürreal rəsmlərlə və 3D formatının kombinasiyasından istifadə etməsidir. Sizin də gələcəyin istedadlı rəssamının əsərləri haqqında məlumatınız olması üçün, bir neçə rəsmi "Yeni Yol" olaraq təqdim edirik. Soraqlaşıb yeni günəşlərimizi kölgələrdən azad etmək diləyi ilə növbəti yazıya qədər sağlıqla qalın...

Afayət Afiq

# "ƏLI VƏ NINO" FİLMİNİN PREMEYERA TARİXİ BƏLLİ OLDU



Qurban Səidin "Əli və Nino" romanı əsasında çəkilmiş film ilk dəfə 2016-cı ilin yanvar ayında ABŞ-ın nüfuzlu "Sundance" beynəlxalq film festivalında nümayiş olunacaq. Festival 21-31 yanvar tarixlərində Yuta ştatının Park-Siti şəhərində baş tutacaq. "Əli və Nino" filmindən əlavə, festival çərçivəsində 16 bədii, 10 sənədli filmin, uşaqlar üçün 3 ekran işinin premyerası olacaq və 9 filmə baxış keçiriləcək.

Böyük Britaniyanın məşhur "PeaPie Films" kino şirkəti tərəfindən ekranlaşdırılan "Əli və Nino" filminin icraçı prodüseri Leyla Əliyeva, prodüseri Kris Tikyer, rejissoru Asif Kapadiya, ssenari müəllifi isə Kristofer Hemptondur. Filmdə Adam Bakri, Mariya Valverde, Halit Ergenç, Mendi Petinkin, Konni Nilson, Rikkardo Samariko, Humayon Erşardi, Fəxrəddin Manafov, Əsad Bub, Numan Akar kimi aktyorlar çəkiliblər.

"Əli və Nino" inqilabdan əvvəlki Bakıda azərbaycanlı gənclə gürcü qızın məhəbbətindən bəhs edir. Romanda 20-ci əsrin əvvəlində dünyanın neft paytaxtının siyasi, etnik və mədəni həyatı təsvir edilir. Hadisələr Birinci Dünya Müharibəsindən sonra Azərbaycan, Gürcüstan və İranda baş verir. Müharibə, qırğınlar, iğtişaşlar fonunda Əli və Ninonun məhəbbəti göstərilir.

# GÜRCÜSTANDA KİŞİLƏRİN QƏLBİNİ OVLAMAQ ÜZRƏ KURS AÇILIB

Gürcüstanda kişilərlə sıx əlaqə yaratmaq istəyən tənha qızlar üçün treninq açılıb. Yeni kurs tənhalıqdan xilas olmaq və Yeni ili sevimli kişi ilə eyni kompaniyada keçirmək istəyən gürcü qızlarına məqsədə necə çatmaq barədə məlumat verir.

"Müasir dövrün ən böyük problemi rabitə qurmaqla bağlıdır. Mən bütün bilik və bacarığımı gürcü istehlakçısı üçün uyğunlaşdırmışam. Biz qızlarla "Görüşdə necə xoşa gəlmək" və "Onun mənim barəmdə nə düşündüyünü necə anlamaq" mövzularında ünsiyyət qururuq", – mərkəzin yaradıcısı Maya Çaduneli bildirib.

Çadunelinin fikrincə, uğurun açarı davranış manerasında, söhbət etmək bacarığında və ürəkdən gələn təbəssümdədir.

Altı saatlıq kursun nə qədər məhsuldar olacağını isə, qızlar Yeni il bayramından sonra danışmağa söz veriblər.

# BİLDİRİŞ

**2013-cü il 23 noyabr tarixində vəfat etmiş Gülü Yusubovanın vəsiyyət üzrə mirasının açılması işinə başlanmışdır.**

**Notarius Qoça Çabaloşvilinin notarial bürosunda 2013-cü 23 noyabr tarixində vəfat etmiş Gülü Yusubovanın miras əmlakı ilə bağlı vəsiyyət üzrə varislik işinin icraatı gedir.**

**Mirasın qəbul edilməsi ilə bağlı iddiası olan varislər bu elanın dərc edilməsindən sonra 15 gün ərzində notarius Qoça Çabaloşvilinin Marneuli şəhəri, Rustaveli küçəsi 89 ünvanında yerləşən notarial bürosuna gəlməlidirlər.**

**Əks təqdirdə elanın dərc olunmasından 15 gün sonra vəsiyyət üzrə varislik şəhadətnaməsi veriləcəkdir.**

Təsisçi:
*"Gürcüstan gənclərinə Yardım və Maarifləndimrə Təşkilatı"*

*Redaktor:* Afiq Muxtaroğlu
*Yayım Direktoru:* Hacı Bəkiroğlu

Ünvan: Qardabani şəh, Kolxoz küç, 4
Tel/ (+995) 595 92 25 70
599 54 12 92
email: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir.
Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər.
Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır.
Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.